AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun strukturu, işçilərin say həddi və əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin strukturu" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun strukturu" təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun strukturu" təsdiq edilsin (əlavə olunur).
4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" aparatının işçilərinin say həddi 120 ştat vahidi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun işçilərinin say həddi 670 ştat vahidi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun işçilərinin say həddi 221 ştat vahidi təsdiq edilsin.
5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" aparatının işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin (əlavə olunur).

6. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin “Bitkiçilik Elmləri İnstitutu”nun və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin “Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu”nun işçilərinin aylıq tarif (vəzifə) maaşlarının məbləği büdcədən maliyyələşdirilən sahələr üçün təsdiq edilmiş müvafiq Vahid Tarif Cədvəli əsasında Vahid Tarif-İxtisas Sorğu Kitabçalarına uyğun olaraq müəyyən edilsin.

7. “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi tədqiqat müəssisələrində çalışan işçilərin əməyinin stimullaşdırılması barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 210 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 783 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin “Bitkiçilik Elmləri İnstitutu”nda və “Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu”nda çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə maaşlarına bu Qərarın 2 nömrəli əlavəsinə uyğun əlavə təyin etsin.”;

7.2. 1 nömrəli əlavə ləğv edilsin;

7.3. 2 nömrəli əlavənin adı aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin “Bitkiçilik Elmləri İnstitutu”nda və “Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu”nda çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavə.”.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 29 ” “ oktyabr ” 2026-cı il

№ 363